*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 4 mart 2020-ci il | № 17 (2435) | Qiymıəti 30 qəpik


## Azərbaycan Prezidenti müddətli həqiqi hərbi xidmətə çağırışla bağlı Sərəncam imzalayıb

*Prezident İlham Əliyev fevralın 28-də Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.*

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2020-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılacaqlar.

Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2020-ci il aprelin 1-dən 30-dək ehtiyata buraxılacaqlar.

## Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il martın 2-dək 108 milyon 221 min 167,74 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 566 avro və 5000 rubl vəsait yığılıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Azərbaycan Ordusu genişmiqyaslı komanda-qərargah təlimlərinə başlayıb



*Ordu dövlətin suverenliyini və ərazi bütövlüyünü təmin edir, əsas qüvvə olaraq dövlət quruculuğunun tərkib hissələrindən biridir. Bu gün Heydər Əliyev tərəfindən formalaşdırılan ordumuz müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır. Son illər Azərbaycanda ordu quruculuğunda, ordunun peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən fundamental tədbirlər Azərbaycan Ordusunun regionun ən güclü ordularından biri olmasını təmin edib.*

Müstəqil Azərbaycanın dövlət və ordu quruculuğu təcrübəsi artıq dünyada mükəmməl örnəklərdən biri kimi qəbul edilir. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin siyasi, iqtisadi, hərbi, sosial, humanitar və digər sahələrdə həyata keçirdiyi uğurlu siyasəti nəticəsində dinamik inkişafa nail olunub. Ölkəmiz bu gün əldə edilən inkişaf sayəsində beynəlxalq arenada da öz mövqeyini gücləndirir və əsl söz sahibinə çevrilir.

İqtisadi qüdrətin artmasının nəticəsidir ki, dövlətimiz ordunun hərtərəfli möhkəmləndirilməsinə, onun müasir döyüş texnikası ilə təchiz edilməsinə, hərbi qulluqçuların sosial-məişət şəraitinin yüksək səviyyəyə çatdırılmasına, günün tələblərinə uyğun hərbi təlimlərin keçirilməsinə diqqət və qayğı ilə yanaşır.

Bu gün Azərbaycan Ordusunun qarşısında dayanan başlıca vəzifə torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsidir. Ordumuzun gündən-günə gücləndirilməsi, döyüş qabiliyyətinin daim artırılması, aparılan məqsədyönlü islahatlar məhz bu vəzifənin uğurla yerinə yetirilməsinə yönəlib.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Ordusu genişmiqyaslı komanda-qərargah təlimlərinə başlayıb





(Əvvəli 1-ci səhifədə)

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 2020-ci tədris ilinin hazırlıq planına uyğun olaraq, martın 2-də Azərbaycan Ordusunda genişmiqyaslı komanda-qərargah təlimlərinə başlanılıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən təlimlərdə informasiya texnologiyalarının geniş tətbiqi, həmçinin heyətlərin, vaxt göstəriciləri və qəbul edilən qərarların icrası planlarının yoxlanılmasının müvafiq idarəetmə orqanları ilə dəqiqləşdirilməsi ilə ərazi, xəritə və ərazinin maketi üzərində icra olunması nəzərdə tutulub.

Təlimlərin hər bir mərhələsində döyüşə hazırolmanın yüksəldilməsi nəzərə alınmaqla, qoşunların vaxtında və hərtərəfli, o cümlədən informasiya təminatının həyata keçirilməsi ilə qoşunların və silahların ən müasir idarəetmə üsullarının tətbiqi planlaşdırılaraq vəziyyətin inkişafının ən vacib məsələləri nəzərdən keçiriləcək.

Keçirilən son təlimlər də sübut edir ki, güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir və şəxsi heyətin döyüş ruhu yüksəkdir. Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarındadır. Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızı azad etməyə qadirdir.

Genişmiqyaslı komanda-qərargah təlimlərinin planına uyğun olaraq döyüş aviasiya vasitələrinin yerdəyişməsi həyata keçirilib.

Döyüşə hazır vəziyyətə gətirilən təyyarə və helikopterlər ehtiyat aerodromlara çıxarılıb və hava hücumundan müdafiə vasitələrinin ərazidə yerləşdirilməsi sona çatdırılıb.

Genişmiqyaslı komanda-qərargah təlimlərinə rəhbərlik edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin ümumqoşun əməliyyatlarının aparılması zamanı fəaliyyətlərin təşkili üzrə qəbul edilən qərarlara dair məruzələri dinləyib.

Müdafiə naziri təlimdə iştirak edən qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verib.

Təlimin növbəti mərhələsində Müdafiə naziri səhra şəraitində ərazidə açılmış təlimin komanda idarəetmə məntəqəsində olaraq qoşunların döyüş fəaliyyətinin təşkilini yoxlayıb.

Ümumi əməliyyatların planlaşdırılması, təminat, döyüşü idarəetmə, artilleriya, hava hücumundan müdafiə və digər qoşun növlərinin idarəetmə qruplarına, maket və taktiki sinif otaqlarına baş çəkən Müdafiə naziri idarəetmə orqanlarının fəaliyyəti, xüsusilə silahlanmaya yeni qəbul olunan döyüş vasitələrinin istifadəsi ilə bağlı müvafiq göstərişlər verib.

Genişmiqyaslı komanda-qərargah təlimlərinin növbəti mərhələsinin tələblərinə uyğun olaraq döyüş tapşırıqlarının dəqiqləşdirilməsi və mövcud döyüş vəziyyətinin qiymətləndirilməsi məqsədilə real şəraitdə ərazinin kəşfi aparılıb.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimin ssenarisinə əsasən vəzifəli şəxslərin məruzələrini dinləyib. Təlimdə iştirak edən qoşunların qəbul olunan qərara uyğun tətbiqi üzrə tapşırıqlar aydınlaşdırılıb.

**"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonu Qoşunlarında kompleks məşq keçirilib

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən qoşunların müxtəlif dərəcəli döyüş hazırlığına gətirilməsi məqsədi ilə kompleks məşq keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşq çərçivəsində qoşunların bir hissəsi praktiki fəaliyyətlərə cəlb edilib.

Stasionar və səhra idarəetmə məntəqələri açılaraq müasir avadanlıq və vasitələrlə idarəetmə təşkil edilib.

Şərti düşmənin qəfil hücumlarının qarşısının alınması və kəşfiyyat-diversiya qruplarının məhv edilməsi üzrə qəbul edilmiş qərarlara uyğun olaraq aidiyyəti bölmələr fəaliyyət göstərib.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 4-də Füzuli rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 mart 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Bala Cəfərli kəndlərində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Mərzili, Füzuli rayonunun Qərvənd, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycanın işğal edilmiş ərazilərində hərbi cinayətlərə dair məruzə BMT-nin rəsmi sənədi kimi yayılıb

Məşhur beynəlxalq hüquqşünas Malkolm Şou və Naomi Hart tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində hərbi cinayətlər və Ermənistanın məsuliyyətinə dair" məruzə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb.

Xarici İşlər Nazirliyinin mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məruzədə Azərbaycanın hazırda işğal altında olan ərazilərində Ermənistanın törətdiyi müharibə cinayətləri və bununla bağlı Ermənistanın üzərinə düşən öhdəliklər araşdırılır, bu xüsusda müvafiq hüquq normaların nəzəri təhlili ilə yanaşı, həmin normaların Ermənistan tərəfindən pozulmasını sübut edən faktoloji məlumatlar əks olunur.

Məruzədə beynəlxalq təşkilatların sənədləri, Avropa İnsan Hüquqları üzrə Məhkəməsinin qərarları, qeyri-hökumət təşkilatlarının araşdırmaları, kütləvi informasiya vasitələrinin açıqlamaları, fərdi müəlliflərin yazıları kimi müstəqil mənbələrdən, eləcə də Azərbaycan Respublikasının müvafiq dövlət qurumlarının sənəd və materiallarından istifadə olunub.

İki hissədən ibarət olan məruzənin birinci hissəsi münaqişənin faktoloji və tarixi kökləri, beynəlxalq humanitar hüququn ümumi izahı və bu xüsusda, Ermənistanın üzərinə düşən öhdəliklərin təhlilinə həsr edilib. Məruzənin ikinci hissəsi isə ardıcıl qaydada təhlil edilmiş müharibə cinayətlərindən bəhs edir, burada ilk növbədə, mülki şəxslərin öldürülməsi və yaralanması ilə bağlı müharibə cinayətlərinə dair, daha sonra isə etnik təmizləmə, işğal altında olan ərazilərdən məcburi köçürülmə və bu ərazilərin xüsusiyyətinin məqsədyönlü şəkildə dəyişdirilməsi, eləcə də mədəni irsin dağıdılması və ətraf mühitə zərər vurulması kimi məsələlərin təhlili yer alıb.

Məruzədə BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad edilərək, BMT Təhlükəsizlik Şurasının birmənalı şəkildə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığını dəstəklədiyi, Dağlıq Qarabağ bölgəsinin Azərbaycan Respublikasının tərkib hissəsi olduğu və erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması və didərgin düşmüş əhalinin öz yerlərinə qaytarılması üçün şəraitin yaradılması barədə tələb irəli sürdüyü vurğulanır.

Məruzədə Ermənistanın bu tələblərə məhəl qoymayaraq, Azərbaycanın ərazilərini nəinki işğal altında saxlamağa davam etdiyi, hətta bütün beynəlxalq hüquq normalarına zidd olaraq, orada müxtəlif növ qeyri-qanuni fəaliyyət apardığı qeyd edilir. Belə ki, sənəddə Ermənistan Respublikasının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində beynəlxalq hüquqa zidd qeyri-qanuni fəaliyyəti araşdırılır. Bu xüsusda, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən 2016-cı ildə hazırlanmış "Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni fəaliyyət" adlı hesabatın, eləcə də Xarici İşlər Nazirliyi və "Azərkosmos"un 2019-cu ildə birgə dərc etdiyi "Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qeyri-qanuni fəaliyyətlər: Peykdən çəkilmiş şəkillərlə sübutlar" adlı hesabatın BMT çərçivəsində yayıldığı qeyd edilir.

### Ön xətdən reportaj

# “Qələbəniz bəşərilik qələbəsi olacaq!”

*"Açıq qapı" günündə ön xətdə yerləşən hərbi hissədə ataların əsgərlərə xitabən dediklərini vətənsevərlik düşüncələri bilmişdim: "Bu günün əsgəri dünənin əsgərindən daha güclüdü, yəni, sizin hər biriniz atanızdan daha güclüsünüz". "Biz hərbi xidmətə çağırılanda Şəhriyarın "Heydər babaya salam"ını makinada çoxaldılmış nüsxəsindən oxumuşduq. Böyük şairin bu poetik salamını müstəqilliyə verilən salam bilmişdik...", “Biz tələbə olanda Eldar Baxışın Azərbaycan poeziyası adından yazılmış "Zori Balayana məktub"u hamımızın əzbərindəydi. Onu "xırda budaqların üstə oturub böyük budaqları silələyənlərə" xalqın adından deyilən xəbərdarlıq kimi oxumuşduq, belə də dərk etmişdik..."...*



"Açıq qapı" günündə atalar mətləbini əsgərlərə ünvanlamışdı, mən - əsgərlərin atalarına:

- Siz də, biz də tələbə olanda ruhumuz sıxıntılar içindəydi. Siz də, biz də tələbə olmamışdan çox əvvəllər Bakıda Çəmbərəkənd olub, rus imperiyası onun yerində Dağüstü park salmışdı. Balalarımız tələbə olanda Dağüstü park tarixdən silindi, yerində xalqın müstəqillik abidəsi kimi tarixləşən Şəhidlər xiyabanı yarandı...

Zabit deyilənləri səmimiyyətlə dəyərləndirmişdi, əsgər atalarına "Sizin düşüncələriniz əsgərlərimizin mənəvi-psixoloji hazırlığında əhəmiyyətli olacaq", - demişdi. Onda eyni səmimiyyətlə zabitin əlini sıxan əsgər atası fikrini belə ifadə etmişdi: "Ailədə aşılananlar məktəbdə, ailədə və məktəbdə aşılananlar hərbi xidmətdə davam etdirilir, yəni, oğulların əsl vətəndaş kimi formalaşması hərbi xidmətlə tamamlanır". Mükalimələşməni zabitin timsalında ordunun, əsgər atasının timsalında ictimaiyyətin mükalimələşməsi bilmişdim. Zabit də, əsgər atası da məmnunluqla gülümsünmüşdü. Biri digərini tamamlayan bu təbəssümlər şükranlığıydı...



Söhbətə başlanğıc kimi bunları xatırladıram.

Zabit qürur inam, inamı qürur kimi ifadə edən kəlmələrində qürur da var, inam da:

- Çağırışçı hərbi xidmətə müəyyən fiziki, mənəvi hazırlıqla gəlir. Hərbi xidmət bunları genişləndirir, dərinləşdirir, təkmilləşdirir. "Azərbaycan Ordusu" qəzetində dərc olunmuş bir reportajda yazıldığı kimi, "Əsgər hərbi xidmətə başlayanda nəyi qoruyacağını hərbi xidmətdə öyrənir". Bu proses elmi əsaslarla aparıldığına görə yüksək döyüş hazırlığına malik olan əsgərin mənəvi-psixoloji hazırlığı da yüksəlir. Bu yüksəliş Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa qadir olan yüksəlişdir.

Əsgər ataları, tərxis olunmuş əsgərlərin ataları, çağırışçıların ataları bu yüksəlişi həm duyur, həm də düşüncələrinə hopdurur, ömrünə köçürürlər. Onun fikrini zabit Ruslan Novruzov tamamlayır: Bu yüksəliş Ali Baş Komandanın döyüş əmriylə qazanılacaq qələbənin başlanğıcıdı...

Ön xətdə zaman anlamında dünənlərə söykənən düşüncələr sabahlara meyilli olur, yəni, səngərli düşüncələrin mahiyyəti "Sabahkı tarixləri bu günün əsgərləri, onların davamçıları olacaq əsgərlər yazacaq..." - inamıdı. Bu inamı yeri göyə dikəltməyə qadir olan əminliyin, mütləqliyin eyni biliрəm.

Zabit Ruslan Novruzov bu inama istinadən deyir ki, əsgərlərimizin döyüş əzmi də, qələbə ruhu da bu inama bağlıdı. Bu inamın başlanğıcı 2016-cı ilin Aprel zəfəridi. Əsgərlərimiz bu zəfəri Böyük Qələbəylə tamamlayacaqlar. Kəlmələr əsgərlərin baxışlarına sarılır. Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlamağa hazırıq. Hər birimiz Qələbənin əsgəri olmaq istəyirik. Qəzetimizdə bir reportaj dərc olunmuşdu: "Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!". Bu and bizim də andımızdı. Əsgər İsmayıl Bayramov əsgər yoldaşının dediklərinə qüvvət kimi deyir:

- 2016-cı ilin Aprel döyüşlərində məktəbli idik. İndi əsgərik. Onda qəhrəmanlıqla döyüşənlərin yolunu biz qələbə ruhuyla, qələbəylə davam etdirəcəyik.

Zabit Ruslan Novruzov əsgərlərin fikirlərini gözəl bir niyyətlə ümumiləşdirir.

- Qələbəniz bəşərilik qələbəsi olacaq!

Yadıma düşür ki, ötən il yanvarın əvvəllərində ön xətdə ezamiyyətdəydim. Səngərlərin yan-yörəsində qar yoxuydu. Qara qış torpağa hələ qar səpələməmişdi. Səpələsəydi, gözə də xoş gələrdi, könülə də. Qar qalağı səngərlərdən bir mənzillik uzaqdaydı. Səngərlərin ətəyində adda-budda qar görünürdü. Bir az əvvəl səngərdə söhbətə giriş məqsədilə "Əvvəllər qar üstünə qar yağardı..." - demişdim. Zabitin davamlı baxışları əvvəlcə əsgərlərin baxışlarına sarılmışdı, sonra qarşı tərəfə yönəlmişdi. Bu heysiyyətli baxışların mahiyyətini, mətləbini az qala nəfəs dərmədən gözlərimə, gözlərimdən düşüncələrimə köçürmüşdüm. Hansı duyuma, bəlkə də istəyə görəsə qarsız göylərə baxmışdım. Sanılı saniyələr ötüşüncə zabit əsgərlərə xitabən demişdi:

- Xalqımız dövlətçiliyimizin bərpası naminə 71 il mübarizə apardı. Mücahidlərin sırasında sizin atalarınız da olub. Onların əzmi, iradəsi, qətiyyəti, mübarizliyi dövlətçiliyimizin bərpası ilə nəticələndi. Atalarınızın amalını siz gerçəkləşdirəcəksiniz - Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan siz azad edəcəksiniz...

Əsgərlər qürurlanmışdılar...

Əsgərlər duyğulanmışdılar...

Aylar sonrası qış gününə bənzəməyən bir qış günündə mahiyyəti Vətən olan, Böyük Qələbə olan səngərli söhbətdən qürurlanan, duyğulanan əsgərlərin əhatəsində atalar əsgərlərə ürəyindən keçənləri demişdi. Onda zabit əsgərlərə xitabən ötən il eyni mahiyyətli söhbətdə zabitdən eşitdiklərimin eynini demişdi. Ruhun yaxınlığını, zabitlərin düşüncələrinin təxmini eyniliyini ruhumun mehrabı bilmişdim. Belə bir gözəl ovqatın cazibəsindəykən bir əsgər atasının qürurumuzu coşduran kəlmələrinə könül vermişdim:

- Biz əsgər olanda kazarmamız kazarmanıza bənzəmirdi, hərbi mundirimizin keyfiyyəti hərbi mundirinizin keyfiyyəti qədər deyildi. Ərzaq təminatımız zəif idi, yeməklərin keyfiyyəti də indiki səviyyədə deyildi. Silah-sursatımız bu günlə müqayisəyəgəlməz dərəcədə aşağıydı. Siz çox yüksək təminata malik olan ordunun əsgərisiniz. Xalq sizə güvənir. Xalq inanır ki, siz Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan tamamilə azad edəcəksiniz.

Əsgər atasının orduya bu ehtiramına, bu inamına ictimaiyyətin ehtiramı, inamı demişdim. Onu da duymuşdum ki, hər əsgər atası bütün əsgərləri öz oğlu bilir. Bu sevgini də ictimaiyyətin orduya sevgisinə tən bilmişdim.



"Açıq qapı" günündə əsgər ataları adından çıxış edən ata əsgərlərə xitabən demişdi:

- Biz əsgər olanda ordumuz ordu kimi formalaşmamışdı. O vaxtlarda Azərbaycanda dövlət çevrilişi təhlükəsi vardı. Xalqın təkidli tələbiylə böyük tarixi şəxsiyyət Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ordumuz nizami ordu kimi formalaşmağa başladı. Onda əsgəriydim. Ordumuzun formalaşma prosesini mən də görmüşəm və etiraf edirəm ki, o illərin əsgərləri bu gün sizə həsəd aparır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ordu quruculuğunu yeni mərhələyə yüksəltdi. İndi ordumuz dünyanın ən güclü orduları sırasındadır. İctimaiyyət bunu 2016-cı ilin aprelində də gördü, 2018-ci ilin yayında, payızında da. İctimaiyyət Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş əzmini də görür, qələbə ruhunu da. Onu da görür ki, Azərbaycan əsgəri qələbə ruhuyla xidmət edir...

"Açıq qapı" günü təkcə valideynlərlə əsgərlərin görüş günü deyil. "Açıq qapı" günündə ictimaiyyət bir hərbi hissənin timsalında ordunu daha yaxından tanıyır. Əsgər atası digər əsgər atalarının nələrdən necə düşündüklərini də bilir. Bir daha əmin olur ki, xalq ordunun, ordu xalqın dayağıdı...

Səngərdə zabitin dediklərini məsləhət, tövsiyə kimi dinləyən əsgərlərlə söhbətləşmişdim. Əvvəllər yazdığım bir reportajı - əsgərlərin baxışlarında gördüyüm, o vaxtdan bəri yaddaşımdan, düşüncələrimdən üzülməyən bir mətləbi xatırlatmışdım: "Səngərləri sərhədlərə köçürəcəyik!". Əsgərlərin əli avtomatın qundağını sıxmışdı, qaşları çatılmışdı, qarşı tərəfdən üzülməyən baxışları tündləşmişdi. Bu qəfillik yaşantılarıma sarılan vəd idi: "Sizi buradan döyüşə uğurlayanların sırasında olmağa niyyətliyəm...", - demişdim. Bunu xatırladaraq:

- Sizi də döyüşə uğurlamaq istərdim. Bilmirəm, həmin anlarda sizin yaxınlığınızda olacam, onlarınmı, - deyirəm. Əsgərlər gülümsünür:

- Həmin gün hamınız, hamımız eyni ruhun - qələbə ruhunun yanında olacağıq!, - əsgər əsgər yoldaşları adından belə deyir...

... Səngərin ətəyində gözucu göy üzünə baxıram - havada qar qoxusu var.

- Bayaq müxtəlif vaxtlarda müxtəlif hərbi hissələrdə iki "Açıq qapı" günündə yaxın (bəlkə də eyni) mahiyyətli iki söhbəti xatırlamışdım. Düşüncələrim bir qürur qədərincə nəfəs dərmişdi. Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığını, döyüş əzmini, qələbə ruhunu ifadə edən həmin mahiyyətli sabahın işığı gözlərimin işığına sarılmışdı, - deyirəm. Əsgərlər məni dönməz əminliklə uğurlayır.

...Səngərə qayıtmaq, əvvəlcə döyüş növbətçiliyi aparanları, sonra digər əsgərləri bağrıma basmaq keçir könlümdən. Onlara deyərdim ki, mənim, mənim timsalımda çağdaş Azərbaycan jurnalistikasının "Sizi buradan döyüşə uğurlamağa da niyyətliyik, izinizcə gəlməyə də, icazə versələr, döyüşməyə də" əhdinin gerçəkləşəcəyi günün ərəfəsindəyik. Onda məmləkət boyunca gen dərələr sellənəcək, çöllər-düzlər başdan-başa güllənəcək, gur bulaqlar dillənəcək:

- Qələbən bəşərilik qələbəsidi, Azərbaycan əsgəri! Sən torpaqlarımızı işğaldan azad etməklə təsdiqlədin ki, Azərbaycan dövlətçiliyi əbədiyyətin cığırdaşıdı!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# "Qələmlə, Silahla..." adlı kitab-albomun təqdimat mərasimi keçirilib

*Azərbaycan Yazıçılar Birliyinin Natavan klubunda Müdafiə Nazirliyi və Azərbaycan Yazıçılar Birliyi Ağsaqqalar Şurasının nəşri olan "Qələmlə, Silahla..." adlı kitab-albomun təqdimat mərasimi keçirilib.*




Kitab-alboma xalqımızın yüksək mənəvi keyfiyyətlərini - Vətən sevgisi, torpağı qorumaq borcu, qələbə əzmi, yadelli işğalçılara qarşı döyüşlərdə qəhrəmanlıq, fədakarlıq, şəhidlik örnəklərini özündə əks etdirən müsahibələr, şeirlər, məqalələr və tarixi şəkillər daxil edilib.

Kitab-albom ulu öndər Heydər Əliyevin "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni, insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur" fikirləri ilə başlanır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nəşrdə 2016-cı ilin Aprel döyüşlərindən sonra Yazıçılar Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə bir qrup şair və yazıçının Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfərindən və onların təəssüratlarından geniş söhbət açılır. Hər sətrində Azərbaycan əsgərinin gücünü, Lələtəpə zirvəsində vüqarla dalğalanan üçrəngli bayrağımızın tezliklə Şuşada da dalğalanacağına əminliyi, kül altından boy atan Cocuq Mərcanlıdakı qələbəliyi tərənnüm edən şeirlər böyük maraq doğurur.

Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, Xalq yazıçısı Anar tədbir iştirakçılarını salamlayaraq, kitab-albomun işıq üzü görməsində göstərdiyi maddi və mənəvi dəstəyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Xalq yazıçısı Müdafiə nazirinin bir qrup yazarı qəbul etdiyi görüşü və cəbhə bölgələrinə səfərlərini xatırlayıb. Yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə və onun istənilən döyüş tapşırığını yerinə yetirməyə hər an hazır olduğundan qürurla danışıb.

AYB-nin Ağsaqqallar Şurasının sədri Nəriman Həsənzadə bütün müharibələrdə digər ideoloji vasitələrlə yanaşı, ədəbiyyatın da böyük rol oynadığını qeyd edərək, müharibə mövzusunda yazılan əsərlərin döyüşçünün mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun yüksəldilməsində müstəsna əhəmiyyət kəsb etdiyini deyib. "Vətən müdafiəçilərinə həsr edilən əsərlər cəmiyyətlə ordu arasında sağlam mənəvi körpü yaradır. Əgər yazar döyüşçünün şücaətini, rəşadətini dolğun şəkildə əks etdirə bilirsə, əgər əsgər həmin əsərlərdə özünün obrazını görürsə, bu, ədəbiyyatın böyük uğurudur."



Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani Müdafiə Nazirliyi ilə Azərbaycan Yazıçılar Birliyinin birgə fəaliyyət planından söz açaraq, ordumuzun qələm sahibləri ilə işbirliyinin vacibliyini xüsusilə vurğulayıb. O, qeyd edib ki, ziyalılar, ictimai xadimlər, eləcə də şair və yazıçılarımız tez-tez Azərbaycan əsgərinin qonağı olur və ordu gənclərinin Vətənə, dövlətə, xalqa sədaqət ruhunda tərbiyə olunmasında səylərini əsirgəmirlər.



A.Qurbani Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun daha da yüksəldilməsinə xidmətlərinə görə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Nəriman Həsənzadəyə ünvanladığı təbrik məktubunu və qiymətli hədiyyəni Xalq şairinə təqdim edib.

Təqdimat mərasimində Xalq yazıçıları Mövlud Süleymanlı, Elmira Axundova, akademik Nizami Cəfərov, Xalq şairi Musa Yaqub, Cocuq Mərcanlıdan gələn Səidə müəllimə və başqaları Müdafiə Nazirliyinin "Hərbi Nəşriyyat"ında hazırlanan AYB-nin Ağsaqqalar Şurasının "Qələmlə, Silahla..." nəşrini yüksək qiymətləndirib və bu vətənpərvərlik təşəbbüsünün davam etdiriləcəyinə əminliklərini bildiriblər.

## "İranın Hərbi Dəniz Qüvvələri Azərbaycan ilə birgə təlim keçirməkdə maraqlıdır"

İranın Hərbi Dəniz Qüvvələri Azərbaycan ilə birgə hərbi təlim keçirməkdə maraqlıdır və buna hazırdır.

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Hərbi Dəniz Qüvvələrinin komandanı, admiral Hüseyn Xanzadə deyib. O bildirib ki, hər iki dövlətin birgə təlimləri dəniz qüvvələrinin döyüş hazırlığını artırar. Admiral qeyd edib ki, Xəzər dənizinin təhlükəsizliyi hər iki dövlətin maraqlarına cavab verir.

H.Xanzadə diqqətə çatdırıb ki, İran ilə Azərbaycan arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Bu əlaqələr səmimi dostluq və qardaşlıq xarakteri daşıyır. İqtisadi, siyasi, mədəniyyət, idman və digər sahələrlə yanaşı, hərbi dəniz qüvvələri arasında da yaxın əməkdaşlıq əlaqələri mövcuddur.

*Gənc zabitlərimiz*

## Azərbaycan Ordusunun zabiti! - qürurla səslənir

*Hərbi hissələrdə nümunəvi xidməti ilə seçilən gənc zabitlərimizlə tez-tez rastlaşırıq. Belə zabitlərimizdən biri də leytenant İsmayıl Məmmədzadədir.*

Hələ yeniyetmə yaşlarından hərbi mundiri geyinmək arzusunda olan İsmayıl 2011-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olur. Valideynləri onun bu qərarını dəstəkləyib, müvəffəqiyyətlər arzulayıblar. Hərbin sirlərinə yiyələnməyə başlayan İsmayıl hələ bu şərəfli yolun astanasında idi. Məqsədinə doğru mətin addımlarla irəliləyən kursant İsmayıl Məmmədzadə 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olur. Uşaqlıqdan arzusunda olduğu leytenant hərbi rütbəsiylə gənc zabit düşmənlə təmas xəttində yerləşən bölmələrdən birinə xidmətə yollanır. Hərbi hissədə bilik, bacarıq və nümunəvi davranışı ilə yuxarı komandanlığın rəğbətini qazanan zabit hərb peşəsinə yiyələnməyin qürurverici olduğunu bildirdi.



- Vətəni qorumaq hər birimizin üzərinə düşən müqəddəs borcdur. Hər bir Azərbaycan kişisi hərbi mundiri geyinir, Vətənimizin keşiyində dayanır. Ancaq Vətənə xidmət yalnız əsgəri xidmətlə bitmir. İstənilən sahədə ölkəmizə, millətimizə xidmət edə bilərsən. Yalnız bunun üçün dövlətinin, millətinin mənafeyini özündən üstün tutmalısan. Əsgərlər müddətli xidmətlərini bitirdikdən sonra mülki həyata qayıdırlar. Çalışmalıyıq ki, hərbi xidmətdə olduqları müddətdə onları yüksək əxlaqi keyfiyyətlərə sahib olan layiqli vətəndaş kimi formalaşdıraq. Bir tərəfdən bacarıqlı döyüşçü, digər tərəfdən isə gələcəyin layiqli vətəndaşını yetişdirmək çox məsuliyyətlidir. Tabeliyində xidmət edənlərin taleyi bizə tapşırılır. Ancaq Vətən sevgisi bütün maneələri üstələyir. Məncə bu şərəfli peşəni seçən hər kəs çətinliklərə sinə gərməyə hazır olmalıdır. Torpaqlarımızın bir qisminin düşmən tapdağında olduğu bir zamanda, o yerlər bizdən hünər gözləyir. Qələbəyə gedən yol uzaqda deyil. İnanıram ki, tezliklə Ali Baş Komandanın döyüş əmri ilə işğal altında olan torpaqlarımızı azad edəcəyik. Ermənilərin törətdikləri vəhşiliyin cavabını layiqincə verəcəyik.

Leytenant İsmayıl Məmmədzadə "Zabit olmağa nə vaxt qərar vermisən?" sualına cavab olaraq bildirdi ki, xalası oğlu leytenant Emin Əliyevi özünə örnək götürüb. "Emini hərbi mundirdə görəndə fərəhlənirdim. Ancaq xalam oğlu az bir müddət bu şərəfli peşənin nümayəndəsi oldu. O, düşmənlə təmas xəttində döyüş tapşırığını yerinə yetirərkən şəhid oldu. Bu itki qəlbimdə, ailəmizdə dərin iz qoydu. Ancaq onun yolunu davam etdirdiyim üçün fəxr edirəm. İnanıram ki, Eminin qisminə bütün şəhidlərimizin qisasını alacağıq."

Tabeliyində xidmət edənlərə qarşı son dərəcə tələbkar və qayğıkeş olan zabit dedi ki, komandir hər şeydən əvvəl kollektivdə şəxsi nümunə olmağı bacarmalıdır. "Bundan ötrü gərək özünə qarşı ikiqat tələbkar olasan. Mütəmadi olaraq mütaliə etməli, zahiri görünüşünə fikir verməli, şəxsi heyətin təlim-tərbiyəsi, qayğısı ilə maraqlanmalısan."

Zabitlə söhbətimiz xoş təəssüratlarla yekunlaşdı. Bu müqəddəs və şərəfli yolda ona uğurlar arzulayırıq.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan zabiti Belarusda hərbi akademiyanı fərqlənmə diplomu ilə bitirib

*Fevralın 28-də Minsk şəhərində Belarus Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Baş Qərargah Fakültəsində "Dövlət və hərbi idarəetmə" ixtisası üzrə dinləyicilərin növbəti buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə Belarus Respublikası Hərbi Akademiyasının Baş Qərargah Fakültəsinin rəisi general-mayor Serqey Zaytsev, Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq Departamenti rəisinin 1-ci müavini polkovnik Valeriy Revenko, professor-müəllim heyəti, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Belarus Respublikasındakı hərbi attaşesi polkovnik Elşən Rəhimov, onun köməkçisi polkovnik-leytenant Aydın Rəhimov və həmin fakültənin birinci kursunda təhsil alan Azərbaycan Ordusunun zabitləri iştirak ediblər.



Cari ildə bu ali hərbi təhsil müəssisəsindən Azərbaycan Ordusunun 2 zabiti məzun olub. Polkovnik Anar Hüseynov hərbi akademiyanı əla qiymətlərlə bitirərək fərqlənmə diplomu alıb.

# Niderlanddakı diaspor nümayəndələrimizdən ermənilərə layiqli cavab

Niderlandın Haaqa şəhərində erməni əsilli bir qrup şəxs Azərbaycanın səfirliyi qarşısında piket keçirməyə cəhd göstərib. Ancaq onlar Niderlanddakı diasporumuzun nümayəndələri tərəfindən layiqli cavablarını alıblar.

AZƏRTAC xəbər verir ki, Avropa Azərbaycanlıları Media Qrupu, Belçika və Niderland Azərbaycanlılarının Koordinasiya Şurası, Niderlandda təhsil alan tələbələr və digər soydaşlarımız 10 metr uzunluğunda Azərbaycan bayrağını ermənilərin gözü qarşısında ucaldıblar. Soydaşlarımız səsgücləndirici vasitəsilə Paşinyanın Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən panel müzakirələrdə çaşaraq söylədiyi "Dağlıq Qarabağ ərazisi Azərbaycana aiddir" sözlərinin səs yazısını nümayiş etdiriblər. Bu, erməniləri sarsıdıb. Onlar saxta fikirlər yazılmış plakatları yerə ataraq səfirliyin ərazisindən uzaqlaşıblar.

## Ovqat

# Varlığımızla Vətənə bağlıyıq

*Vətənin hər bir insanın həyatında müqəddəs yeri var. İnsan hələ kiçik yaşlarından Vətənin doğmalığını, onun təkrarolunmazlığını və ya sadəcə olaraq "ana Vətən" kəlməsinin qəlbində yaratdığı istiliyi dərindən duyur, hiss edir.*

Hələ kiçik yaşlarımızdan valideynlərimizin dilindən "Vətən anadır" - kəlməsini eşidə-eşidə böyüyürük. Torpağın üstündə addımladıqca yavaş-yavaş dizlərimiz bərkiyir, qollarımıza qüvvət gəlir. Yaşa dolduqca dərk edirik ki, bu torpaqda yaşayırıqsa, bu yurdun havasını udub, suyunu içiriksə, bizə bu diyar həyat veribsə, deməli, biz bu ölkənin vətəndaşıyıq, bu torpağın övladıyıq. Bütün varlığımızla bu yurda, bu torpağa, ana Vətənimizə - Azərbaycanımıza borcluyuq.

Hər bir insan yurduna sadiq və layiq vətəndaş olmağı üçün səylə çalışmalıdır. Biz hamımız Azərbaycanımızı işıqlı sabahlara, aydın gələcəyə qovuşdurmaq uğrunda mübarizə aparmalıyıq. Yurdumuzda gözü olan düşmənləri qəlbimizdəki Vətən sevgisinin gücü, Vətən məhəbbətinin atəşi ilə yandırıb məhv etməliyik. Vətən yalnız ona görə böyük deyil ki, onun qəhrəmanlıq keçmişi, sənət və mədəniyyətlə zəngin, insanların nəcib əməlləri ilə dolu keçmişi vardır. Vətən həm də ona görə böyük və qiymətlidir ki, onda ulu babalarımızın ölməz izi var. Və bu izlər hər birimizə ana südü qədər şirin, təmizdir, ana qucağı tək isti və doğmadır.

Gənclik və yeniyetməlik illərində təhsil aldığım məktəbdə keçirilən bir çox yarışlarda, hərbi idman oyunlarında fəal iştirak edirdim. "Üfüqdə parıltı", "Şahin" və başqa hərbi vətənpərvərlik oyunları bizim fiziki hazırlığımızı gündən-günə artırırdı. İbtidai hərbi hazırlıq fənnini tədris edən müəllimdən eşitdiyim sözlər heç yadımdan çıxmır. Müəllimimiz deyirdi: "Demə Vətən mənim üçün nə edib, de ki, mən Vətən üçün nə etmişəm?". Həqiqətən, çox gözəl və dəyərli sözlərdir. Vətəni yaşadan da, onu ucaldan da, şərəfləndirən də, qoruyan da biz Vətən övladlarıyıq. Vətən torpağı bizim üçün toxunulmaz və müqəddəsdir.

Əsl vətəndaş odur ki, öz Vətənini bütün qəlbi ilə, canı və qanı ilə sevsin, onun azadlığı və istiqlaliyyəti uğrunda hər an döyüşə, vuruşa hazır olsun.

**Mayisə ƏSƏDULLAQIZI,**
**Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü**



# Heydər Əliyev adına Hərbi Lisey - 16 ilin nümunəvi təhsil müəssisəsi

*Fevralın 27-də Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin yaradılmasının 16-cı ildönümü tamam olub.*

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Prezident İlham Əliyevin 2004-cü il 27 fevral tarixli Sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılıb.

Heydər Əliyev adına Hərbi Liseydə ötən dövrdə geniş quruculuq işləri aparılıb, burada Ümummilli Liderin büstü ucaldılıb, ikimərtəbəli qərargah binası, müasir tədris korpusu və yataqxana binası istifadəyə verilib, maddi-texniki baza xeyli gücləndirilib, kursantların yaşayış şəraiti yaxşılaşdırılıb. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2005-ci il dekabrın 19-da liseydə yaradılan şəraitlə tanış olub, kursantlar qarşısında çıxış edərək deyib: "Heydər Əliyev adına Hərbi Liseydə oxumaq böyük şərəfdir və böyük məsuliyyətdir. Bu liseydə təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar".

Liseyə kursant qəbulunun ildən-ilə artması bu təhsil müəssisəsinə olan marağın nəticəsidir. Cari tədris ilində Heydər Əliyev adına Hərbi Liseyə 126 kursant qəbul olunub. Hazırda liseydə 314 kursant təhsil alır.

Bu gün Heydər Əliyev adına Hərbi Liseyi bitirənlər Müdafiə Nazirliyinin birləşmələrində, Hərbi Dəniz və Hərbi Hava Qüvvələrində, Milli Qvardiya və Dövlət Sərhəd Xidmətində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində müxtəlif vəzifələrdə şərəf və ləyaqətlə qulluq edirlər. Ötən dövrdə məzun olan 2 mindən çox kursantdan Hərbi liseyi qızıl və gümüş medallarla, eləcə də fərqlənmə attestatı ilə bitirənlər də az deyil. Məzunlardan 100-ə yaxını xarici dövlətlərdə, o cümlədən Rusiya Federasiyasında, Türkiyə, İtaliya və Koreya respublikalarında təhsillərini davam etdirirlər. İstər ali hərbi məktəblərdə təhsil alan, istərsə də Azərbaycan Silahlı Qüvvələrində xidmətlərini davam etdirən liseyin məzunları öz nizam-intizamları, vətənpərvərlikləri, bilik və bacarıqları ilə seçilirlər. Şanlı Aprel döyüşlərində, eləcə də Günnüt əməliyyatında düşmən təxribatlarının qarşısını alarkən Heydər Əliyev adına Hərbi Liseyin məzunları da qarşı tərəfə layiqli cavab vermişlər.

Heydər Əliyev adına Hərbi Lisey artıq 16 ildir ki, Ulu Öndərin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi savadlı, bacarıqlı, ləyaqətli, vətənpərvər zabitlərin yetişdirilməsi yolunda fəaliyyət göstərir. Hərbi liseyin zabit-müəllim heyəti, kursant və məzunları bu şərəfli adı doğrultmağa çalışır, Heydər Əliyev yoluna sədaqət nümayiş etdirirlər.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Hərbi lisey kursantlarına müraciətlə deyib: "Ordu o zaman güclü olur ki, onun peşəkar komandan-zabit heyəti olsun. Azərbaycan dövləti hərbi təhsil müəssisələrinin fəaliyyəti üçün hərtərəfli şərait yaradır, zabit hazırlığına diqqəti artırır. Zabit olmaq üçün təkcə hərbi təhsil və fiziki hazırlıq kifayət etmir, bu peşəni seçən hər bir gənc, ilk növbədə, Vətənini, xalqını, dövlətini sevməlidir. Tarixinə, milli dəyərlərinə, dilinə, adət-ənənələrinə sahib çıxmalı, dünyagörüşünü artırmalı, dövləti və xalqı qarşısındakı xidməti borcunu şərəflə yerinə yetirməlidir".

AZƏRBAYCAN ORDUSU

# Şəhid ailələri ilə Heydər Əliyev adına Hərbi Lisey kursantlarının görüşü olub

*Xidməti vəzifələrini yerinə yetirərkən şəhid olmuş Heydər Əliyev adına Hərbi Liseyin məzunlarının ailə üzvləri və yaxınları ilə kursantların görüşü keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin rəisi general-mayor Məhəmməd Həsənov bildirib ki, Ümummilli Liderimizin xatirəsinin əbədiləşdirildiyi ilk ünvan kimi Hərbi lisey gələcəyin vətənpərvər, savadlı və peşəkar zabitlərinin yetişdirilməsi yolunda inamlı addımlar atır. Ötən dövr ərzində Hərbi liseydə nümunəvi hərbi tədris sistemi, möhkəm maddi-texniki baza yaradılıb. Əsas məqsəd Vətənimizin müdafiəsinə hazırlanan gənclərimizə hərbi işə dair bilik və bacarıqları mənimsətməkdən ibarətdir. Buna görə də Hərbi liseyə daxil olan ilk gündən kursantlara Vətənə məhəbbət hissi aşılanır.

Tədbirdə Hərbi liseyin müəllimi Mirismayıl Seyidov və şəhid yaxını Xanəli Kərimli çıxış edərək bildiriblər ki, müxtəlif vaxtlarda düşmən təxribatlarının qarşısını alarkən Heydər Əliyev adına Hərbi Liseyin məzunları böyük qəhrəmanlıq və şücaət göstəriblər. Hərbi liseyin 8 məzunu Vətənimizin müdafiəsi uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olub. Şərəfli zabit həyatı yaşayaraq gələcək nəsillərə örnək olmaq arzusu bu gün hər bir kursantın həyat amalına çevrilib. Hər bir gənc də Heydər Əliyev adına Hərbi Liseydə təhsil aldığına görə fəxr hissi ilə özünü əsl Vətən müdafiəçisi bilir.

Çıxışların ardından videoçarx nümayiş olunub, kursantlar Vətənimizə həsr olunmuş şeirləri bədii qiraət edib və ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

## Tibb xidməti

# "Ən böyük mükafatımız hərbçilərin xoş sözləridi"

*Elmi-texniki tərəqqinin inkişafı bir çox sahələrdə olduğu kimi, səhiyyə sistemində çalışan həkim-mütəxəssislərin də işini xeyli asanlaşdırıb. İndi həkimə müraciət edən xəstələri müayinə etmək, xəstəliyini müəyyənləşdirib dəqiqləşdirmək üçün elə də çox vaxt itirmək lazım gəlmir. Müasir tipli qurğu və avadanlıqların köməkliyi ilə qısa müddət ərzində xəstəliyi "tapmaq" mümkündür. Amma o da var ki, gərək bu sahədə çalışan həkim-mütəxəssislər müasir qurğu və avadanlıqlarla, müayinə zamanı onlardan bacarıqla istifadə etsinlər. Necə deyərlər, öz sahəsinin peşəkarı olsunlar. Peşəkarlara isə həmişə ehtiyac duyulub.*



Beş ilə yaxındır Müdafiə Nazirliyi Mərkəzi Hərbi Poliklinikasında çalışan tibb xidməti baş leytenantı Nigar Musayeva USM üzrə bacarıqlı, işini bilən peşəkar həkim-mütəxəssisdir. Hərbi qulluqçulara tibbi xidmət göstərən Nigar Musayeva 2005-ci ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirib. 2006-cı ildə isə təhsilinin interna mərhələsini uğurla keçib. Mütəxəssis kimi bir müddət özəl klinikalarda çalışıb. Xeyli təcrübə toplayıb, yorulmaq bilmədən peşəkarlığını artırıb. Amma harada işləsə də, hərbi xidmətə böyük marağı və məhəbbəti olub. Həmişə əyninə hərbi forma geyinəcəyi günün intizarını çəkib. Hərbçi olmaq istək və məhəbbətinin onda yaranıb formalaşmasında həkim, şair və hərbi vətənpərvərlik mahnılarının bəstəkarı olan Şahin Musaoğlunun da (Əbilov) təsiri az olmayıb. Nigar xanım bir müddət həkim-mütəxəssis Şahin Musaoğlundan USM-in sirlərini öyrənib.

- Hərbi xidmətə olan marağımın artmasında həkim, şair və bəstəkar Şahin Musaoğlunun böyük təsiri olub, - deyə tibb xidməti baş leytenantı Nigar Musayeva söhbətə başladı. - Təsadüf elə gətirdi ki, USM-in sirlərini Şahin həkimdən öyrənməli oldum. Hələ məktəb illərindən onun hərbi vətənpərvərlik ruhunda bəstələdiyi mahnılara sevə-sevə qulaq asardım. Bu gözəl mahnılar Vətən sevgisini zərrə-zərrə qanımıza, canımıza hopdurub. Bir vaxtlar bizə vətənpərvərlik hissləri aşılayan Şahin müəllimdən həm də USM-in sirlərini öyrəndim. 2016-cı ildən zabit kimi xidmətə başladım. Yurdumuzun keşiyində dayanan hərbi qulluqçulara tibbi xidmət göstərməkdən məmnunam, işimdən zövq alıram. Bu günə qədər qazandığım tibbi bilikləri hərbi qulluqçulara sərf etməyimə görə sevinirəm. İşim diqqət tələb edən bir sahədir. Ona görə də bizə müraciət edən hərbi qulluqçuların müayinəsinə məsuliyyətlə yanaşıram. Yaxşı bilirəm ki, müayinənin dəqiqliyi müalicənin düzgün aparılmasına böyük təkan verir. Ona sevinirəm ki, hərbi qulluqçular həmişə işimizdən razılıq edirlər. Bizim ən böyük mükafatımız hərbi qulluqçuların xoş sözləridi.

Ordumuzun sıralarında belə peşəkar, öz işini bilən həkim-mütəxəssislərin xidmət etməsi, hərbi qulluqçularımızın sağlamlığı keşiyində dayanması bizi çox sevindirdi. Nigar xanım gəncdir, hələ qarşıda onu uzun xidmət illəri gözləyir. Əminik ki, həkim-mütəxəssis həmişə hərbi qulluqçularımıza böyük sevgi və məhəbbətlə yanaşacaq. Müayinə etdiyi hərbi qulluqçular isə heç vaxt ondan xoş sözlərini əsirgəməyəcəklər.

Tibb xidməti baş leytenantı Nigar Musayeva ilə söhbətimizi yekunlaşdırdığımız ərəfədə otağa bir hərbçi daxil odu. Nigar xanım onu müayinə edəcəkdi...

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Şəhid rejissorun həyatından bəhs edən tamaşa nümayiş olunub

*Naxçıvan Musiqi Kollecinin Tələbə Teatr Studiyası Heydər Əliyev adına Hərbi Liseyin kursantları üçün "Vaqif" tamaşasını nümayiş etdirib. Tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının Əməkdar artisti Nurbəniz Niftəliyevadır.*

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovun əsəri əsasında səhnələşdirilən tamaşa Naxçıvan teatrının şəhid rejissoru Vaqif Əhmədovun həyatından bəhs edir.

1991-ci ilin son aylarında Azərbaycan Dövlət İncəsənət İnstitutunun rejissorluq fakültəsində təhsil alan Vaqif Əhmədov Naxçıvan Teatrında "Anamın kitabı" tamaşasını yeni quruluşda ərsəyə gətirib.

Vaqif Əhmədov 1992-ci ilin yanvarında rejissorluq etdiyi tamaşanı təhvil verdikdən sonra könüllü olaraq cəbhəyə yollanıb. Ağdərə döyüşləri zamanı igidliklə həlak olan və Bakıda Şəhidlər xiyabanında dəfn edilən Vaqif Əhmədovun şəxsində milli teatr sənətimiz gələcəyin istedadlı rejissorunu itirdisə də, Vətən daim xatirələrdə yaşayacaq qəhrəman övlad qazanıb.

# "Xocalı kimi faciələr işıqlandırılmalıdır ki, bir daha təkrarlanmasın"

*Bəzən çox danışılır, ancaq heç bir addım atılmır. Bu tədbir çərçivəsində nümayiş etdirilən sənədli film məni çox təsir etdi. Bu sənədli filmdə qadınların üzləşdiyi işgəncələri görəndə göz yaşlarımı saxlaya bilmədim. Hər kəs bilməlidir ki, dünyanın gələcəyini, davamlılığını qadınlar təmin edir. Onların sayəsində nəsillər artır, inkişaf edir.*

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Fransada "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq humanitar hüquq normalarının pozulması: əsir, girov, itkin düşmüş şəxslər problemi" mövzusunda keçirilən tədbirin iştirakçısı İvona Alışkova deyib.

Bildirib ki, qadınlara qarşı olan qeyri-insanı münasibətlər qəbuledilməzdir. Onlara qarşı törədilən qəbuledilməz hərəkətlər bəşəriyyətə qarşı cinayətdir. Mülki əhaliyə qarşı belə qəbuledilməz davranışlar cəzalandırılmalıdır.

"Bu filmdə silahlı münaqişədən ən çox qadınların, uşaqların və ahilların əzab-əziyyət çəkdiyinin şahidi olduq. Belə faciələr işıqlandırılmalıdır ki, bir daha təkrarlanmasın", - deyə İ. Alışkova qeyd edib.

# Hərbi hissələrdə psixoloji işə dəstək fəaliyyətləri davam etdirilir



*Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabit və dövlət qulluqçularından ibarət işçi qrupu tərəfindən hərbi hissələrdə gənc əsgərlərin sosial-psixoloji cəhətdən öyrənilməsi, hərbi xidmətə adaptasiya olunması, xidmət və məişət şəraitinin düzgün təşkili istiqamətində yerinə yetirilən psixoloji işə dəstək fəaliyyətləri yerinə yetirilib.*

Plana uyğun olaraq hərbi qulluqçularla psixoloji testlərin keçirilməsi, kollektivlərdə sosial-psixoloji proseslərin və şəxsiyyətlərarası münasibətlərin öyrənilməsi mövzularında təlim-metodiki məşğələlər keçirilib.

Məşğələlərdə hərbi qulluqçuların temperament tipinin, hərbi kollektivlər daxilindəki münasibətlərin öyrənilməsi, hərbi qulluqçuların psixoloji dayanıqlığının müəyyən edilməsi prosesləri nəzəri və praktiki cəhətdən izah edilib.

Bundan əlavə ideoloji iş və mənəvi-psixoloji təminat üzrə zabitlərə şəxsi heyətin milli-mənəvi dəyərlərə sadiqlik, dövlətçilik və vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində tövsiyələr verilib, gənc əsgərlərlə tərbiyəvi mövzularda maarifləndirici söhbətlər aparılıb.



# Ermənistan ordusunda kriminal hadisələr

Ermənistan hakimiyyətinin 2008-ci ildə İrəvanda nümayişlər zamanı ölmüş insanların varislərinə vərəsələrin ayrılması haqqında qanun layihəsinin müzakirəyə çıxarılması orduda ölmüş əsgər analarını ayağa qaldırıb. Yaxın günlərdə aksiyaya hazırlaşan qara geyimlilər bildirirlər ki, nə üçün İrəvanın mərkəzində ölənlərin varislərinə pul veriləcək, orduda ölənlərin yaxınlarına yox?

* * *

"Hraparak" qəzeti yazır: "Hökumət martın 20-dən üç ay ərzində səfərbərlik keçirməyi planlaşdırır. Bu yaxınlarda "Təlim toplanışların elan edilməsi haqqında" qərar layihəsi ictimai müzakirəyə verildi, ona əsasən 374 vətəndaşın təlimə cəlb edilməsi təklif olunur, onlardan 233-ü siravi, 44-ü gizir, 97-i zabit ehtiyatıdır.

Bu uzunmüddətli səfərbərliyin elan edilməsi necə izah olunur? - sahə mütəxəssislərinin dediyi kimi, bir səfərbərlik üçün icazə verilən maksimum müddət bir aydır.

Rəsmi izahat budur ki, son illərdə olduğu kimi, "Ermənistan silahlı qüvvələri yeni silah-sursat və hərbi texnika ilə təmin edildiyindən, ehtiyatda olanların peşə hazırlığının keyfiyyətinin artırılmasına ehtiyac var" - yeni silahların istismar xüsusiyyətlərinin mənimsənilməsi baxımından.

Mənbələrimiz də bunun seçkilər və konstitusiya referendumu ilə əlaqəli olduğunu söyləyirlər; "Müdafiə sistemini gücləndirir və mümkün zərbələrə hazırlaşırlar."

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# "Xocalını unutmayaq!"

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Xocalı faciəsinin 28-ci ildönümünə həsr olunmuş tədbiri kursantların vətənpərvərlik tərbiyəsində dəyərli bir vasitə kimi izlədim. "Xocalını unutmayaq!" adlı anım mərasimini Cəmşid Naxçıvanski adına Hərbi Lisey rəisinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini - şöbə rəisi polkovnik Müslüm Nəsirov açıq elan etdi. Əvvəlcə ümummilli lider Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Mərasim iştirakçıları hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himnini ifa etdilər.*



Polkovnik Müslüm Nəsirov Xocalı faciəsi haqqında mərasim iştirakçılarına məlumat verərək bildirdi ki, erməni qəsbkarları 28 il əvvəl Xocalıda bəşəriyyətin ən dəhşətli faciələrindən birini törətdilər. "1992-ci il fevralın 25-dən 26-na keçən gecə daşnaklar heç kimə aman vermədən xalqımıza qarşı soyqırımı həyata keçirdilər. Bu dəhşətli faciədə ermənilər silahsız, köməksiz qadınları da, uşaqları da güllələdilər. Tükürpədən faciə yaddaşımıza qanla yazılıb. Qanla yazılan tarix isə heç vaxt unudulmur. Faciəni əks etdirən foto-şəkillər, video görüntülər hər birimizi qisasa, intiqama çağırır. Xocalı faciəsini heç vaxt unutmayacağıq və erməni qəsbkarlarından bunun qisasını alacağıq."

Bədii qiraət dərnəyinin rəhbəri Gülsədə Amanın, dram dərnəyinin rəhbəri Aynurə Qulamovanın təşkilatçılığı ilə hazırlanmış tədbirdə rəsm dərnəyinin rəhbəri Xamis Əkbərovun və dərnək üzvləri olan kursantların rəsm əsərlərinin sərgisi oldu.

Mərasimdə, həmçinin Xocalıya həsr olunmuş kitab, jurnal və qəzet yazılarından ibarət sərgi də nümayiş etdirildi. Ordumuzun gələcək zabitləri olacaq kursantlar sərgilərdə nümayiş olunan kitab, rəsm və eksponatlarla tanış oldular.

II kursun kursantı Hüseyn Quliyev "Ana, mən şəhid oldum" mahnısını ifa etdi.

Keçirilən bu tədbirlər bir daha göstərdi ki, Xocalı faciəsi heç vaxt unudulmayacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

## Macarıstan nəşrində nasist Njdenin Ermənistanda qəhrəman kimi qələmə verilməsi haqqında məqalə dərc olunub

"Daily News Hungary" nəşrində alman mənşəli Mattias Volfun nasistlərin əlaltısı Qaregin Njdenin Ermənistanda qəhrəman kimi qələmə verilməsi haqqında məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, İkinci Dünya müharibəsində Qələbənin 75 illiyinə həsr olunmuş məqalədə nasistlərin və onların əlaltılarının qəhrəman kimi qələmə verilməsinə qarşı BMT Baş Assambleyasının qətnamələri xatırlanır. Müəllif qeyd edir ki, Ermənistan rəhbərliyinin bu yolverilməz hərəkəti ilə bağlı ilk həyəcan təbili çalanlardan biri, müxtəlif beynəlxalq tədbirlərdə dəfələrlə bu məsələni qaldıran Azərbaycan Prezidenti İlham Əliyev olub.

Mattias Volf, həmçinin yazır ki, nasistlərin əlaltılarının qəhrəman kimi qələmə verilməsinə hələ Ermənistanın sabiq prezidentləri Robert Koçaryanın və Serj Sarkisyanın hakimiyyətləri dövründə başlanılıb və indi isə bu siyasət Nikol Paşinyan tərəfindən davam etdirilir.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə və Rusiya prezidentləri Moskvada görüşəcəklər



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putin martın 5-də Moskvada görüşəcəklər.

Rusiyaya səfər edəcək Türkiyə heyətində ölkənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Milli Müdafiə naziri Hulusi Akar və Milli Kəşfiyyat Agentliyinin rəhbəri Hakan Fidan da təmsil olunacaq.

## Türkiyə Silahlı Qüvvələri Suriyada rejimə məxsus iki təyyarəni məhv edib



Türkiyə Silahlı Qüvvələri Suriya rejiminə məxsus iki "Su-24" qırıcı təyyarəsini məhv edib.

Bu barədə məlumatı Türkiyə Milli Müdafiə Nazirliyi yayıb.

Məlumatda bildirilir ki, təyyarələr Suriyanın İdlib vilayətində Türkiyə Silahlı Qüvvələrinin mövqelərinə təhdid yaratdıqları üçün vurulub. Eyni zamanda, Türkiyə ordusuna məxsus pilotsuz uçan aparatı vuran iki hava hücumundan müdafiə sistemi də sıradan çıxarılıb.

## ABŞ və "Taliban" sülh sazişi imzaladı



ABŞ-ın Əfqanıstan üzrə xüsusi nümayəndəsi Zalmay Xəlilzad və "Taliban" hərəkatı liderinin müavini, hərəkatın Qətər siyasi ofisinin rəhbəri molla Abdulla Qani Bəradar Birləşmiş Ştatlarla taliblər arasında sülh sazişini imzalayıblar.

İmzalanma mərasimi bu gün Dohada baş tutub. Sənəd imzalandıqdan sonra Xəlilzad və Bəradar bir-birinin əlini sıxıblar. ABŞ-ın Dövlət katibi Mayk Pompeo talibləri "Əl-Qaidə" terror təşkilatı ilə əlaqələri kəsmək barədə vədlərini yerinə yetirməyə çağırıb.

Yayılan birgə açıqlamada "Taliban"ın razılaşmaya əməl edəcəyi təqdirdə ABŞ və müttəfiqlərinin bu ölkədəki hərbçilərini 14 ay ərzində tamamilə çıxaracağı bildirilir.

## Pakistanda baş verən partlayış nəticəsində beş nəfər ölüb



Pakistanın Pəncab əyalətindəki fabrikdə baş verən partlayış nəticəsində beş nəfər ölüb. Hadisə nəticəsində xəsarət alanlar yaxınlıqdakı xəstəxanaya çatdırılıblar. Onların üçünün vəziyyətinin ağır olduğu bildirilir.

Partlayış fabrikin qazanxanasında texniki nasazlıq səbəbindən baş verib.

## İranda millət vəkili koronavirusa yoluxaraq ölüb



İran İslam Şurası Məclisinin (parlament) deputatı Məhəmədəli Ramazani koronavirusa yoluxaraq həyatını itirib.

M.Ramazani fevralın 21-də İran parlamentinə keçirilən seçkilərdə deputat seçilmişdi.

İranın Səhiyyə Nazirliyinin yaydığı açıqlamaya görə, hazırda İranda 388 nəfər virusa yoluxan qeydiyyata alınıb, onlardan 34 nəfəri həyatını itirib.

Nazirlik qərb mətbuatının İranda 210 nəfərin virusa yoluxaraq ölməsi haqqında yayılan xəbərləri təkzib edir.

**AZƏRTAC-ın materialları əsasında**

# GUAM-a üzv ölkələr arasında əməkdaşlığın perspektivləri müzakirə olunub

*Kiyevdə GUAM-ın Milli Əlaqələndiricilər Şurasının 52-ci iclasında quruma üzv ölkələr arasında iqtisadi əlaqələrin gücləndirilməsi qərara alınıb.*

AZƏRTAC xəbər verir ki, iclasda GUAM çərçivəsində siyasi, iqtisadi əməkdaşlığın perspektivləri, beynəlxalq təşkilatlarda birgə fəaliyyətin gücləndirilməsi müzakirə olunub.

Tədbirdə iştirak edən Azərbaycan Xarici İşlər nazirinin müavini Mahmud Məmmədquliyev bildirib ki, bu il Azərbaycanın quruma sədrliyi dövründə əsasən infrastruktur, nəqliyyat, enerji layihələrinin həyata keçirilməsi istiqamətində bir sıra sənədlərə baxılacaq.

İclasda vurğulanıb ki, quruma üzv ölkələri beynəlxalq təşkilatlarda koordinasiyalı işini daha da təkmilləşdirməlidir.

## Nümunəvi xidmət

# "Vətən mənə oğul desə..."



*Uşaqlıq dünyasının könüləyatımlı qəribəliklərinə hamımız yaxşı bələdik. Bu qəribəliklərin nizamlı, məntiqi, bir-birinə bağlı düzümünə kimsə şübhə edə bilməz. Dəfələrlə müşahidə də etmişəm, eşitmişəm də ki, uşaq atasından, müəllimlərindən soruşub: Ermənilər bizdən nə istəyir? Gözlənilməz sual qürurla dinlənilir, qürurla düşündürür, qürurla da cavablandırılır. Bu sual, belə sual, bu çılğınlıqda bunu Vətən sevgisinin təzahürü bilmişəm. Müşahidə edəndə də ürəyim dağa dönüb, eşidəndə də - uşaqların bu ruhda böyüdüyünə görə, bu ruhla cavanlaşacaqlarına, bu ruhla əsl vətəndaş kimi formalaşacaqlarına görə.*

Belə sualları atasına, babasına Fariz də verib. Eşitdiyi cavablar onu uşaqlıq dünyasından yeniyetməliyə, yeniyetməlikdən çağırışçı yaşına çatdırıb.

Fariz hərbi xidmətə çağırılanda bir vaxtlar atasına, babasına verdiyi sualı da xatırlayır, aldığı cavabı da: "Azərbaycan əsgəri ermənilərin murazını gözündə qoyacaq. Sən də əsgər olacaqsan. Sən də torpaqlarımızın keşiyini çəkəcəksən." Bu dəfə o sualı özü cavablandırıb, cavabı ancaq özü eşidib: "Azərbaycan Ordusu güclüdür, qüdrətlidir. Torpaqlarımız işğaldan azad olunacaq. Mən də döyüşlərdə iştirak edəcəm!.."

Sonuncu sinifdə oxuyanda ədəbiyyat müəllimi soruşmuşdu: Əsl vətəndaş kimdir? Onda müəllimi onun da cavabını bəyənmişdi:

- Əsl vətəndaş ömrünü Vətən üçün yaşayanlardı. Hərbçilər ömrünü Vətən üçün yaşayırlar. Biz də əsgər olacağıq, biz də ömrümüzü Vətən üçün yaşayacağıq.

Fariz İmanov əsgərdi, ömrünü Vətən üçün yaşayanların sırasındadı. O da komandirlərinin, zabitlərin əmr və göstərişlərini məsuliyyətlə, vaxtında yerinə yetirir. Hərbi Nizamnaməni öyrənir də, onların tələblərinə əməl edir də. Bu səbəbdən leytenant Mirhəsən Seyidli nümunəvi əsgərlər sırasında Fariz İmanovu da fərqləndirdi.

- Atamdan da eşitmişəm, müəllimlərimdən də, qəzetdə də oxumuşam ki, Vətən borcu hərbi xidmətlə tamamlanmır. Mən də yaxşı əsgər kimi, torpaqlarımızı işğaldan azad etmiş qalib əsgər kimi tərxis olunmaq istəyirəm. Komandirlərimizin öyrətdiklərini böyük həvəslə, istəklə öyrənirəm. Yaxşı əsgər yüksək hərbi biliklərə də malik olmalıdır, - əsgər Fariz İmanov belə dedi.

Əsgər Fariz İmanovla söhbətləşdik. Aprel döyüşlərindən, Günnüt zəfərindən, Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradlardan danışdıq. Əsgərin dünyaduyumunu da bəyəndik, düşüncələrini də, vətənsevərliyini də; sözarası Məmməd Arazın bir beytini dedi:

*Vətən mənə oğul desə,*
*nə dərdim,*
*Mamır olub qayasında*
*bitərdim.*

Bu istəklə yaşayır əsgər Fariz İmanov.

Əsgər Fariz İmanovun nümunəvi xidmət edəcəyinə də inandıq, istəyinə çatacağına da - qalib əsgər kimi tərxis olunacağına da...

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

## İdman

### Karateçilərimiz Avstriyada Premyer Liqa turnirini iki medalla başa vurublar




Karateçilərimiz Avstriyanın Zalsburq şəhərində keçirilən "Karate 1" Premyer Liqa turnirini iki medalla başa vurublar.

Rafiz Həsənov (67 kq) yarışda uğurla çıxış edərək qızıl medal qazanıb. O, finalda İtaliya təmsilçisi Luka Mareskadan üstün olub.

Qadınların yarışında isə İrina Zaretska (68 kq) bürünc medal qazanıb.

Xatırladaq ki, Azərbaycan karateçiləri fevralın 14-16-da Dubayda keçirilmiş "Karate 1" Premyer Liqa turnirində də iki medal (Rafael Ağayev qızıl, İrina Zaretska bürünc) qazanıblar.

### Varşavada keçirilən açıq Avropa turnirində Azərbaycan cüdoçuları 3 medal qazanıblar

EUROPEAN JUDO OPEN Men & Women WARSAW 2020

Fevralın 29-dan martın 1-dək Varşavada cüdoçular arasında keçirilən açıq Avropa turnirində Azərbaycan komandası iki gümüş, bir bürünc medal qazanıb.

Cüdoçularımızdan Rüfət İsmayılov (90 kiloqram) və Şahin Qəhrəmanov (+100 kiloqram) yalnız finalda məğlub olaraq gümüş medala layiq görülüblər. Komandamızın digər üzvü Yaşar Nəcəfov (60 kiloqram) isə bürünc medal qazanıb. Qitə yarışında ölkəmizi 18 cüdoçu təmsil edib. Yarışda 40 ölkədən 400-dən çox cüdoçu mübarizə aparıb.

### Azərbaycan atleti İstanbulda keçirilən beynəlxalq turnirdə gümüş medal qazanıb



Fevralın 29-da Azərbaycan atleti Türkiyənin İstanbul şəhərində keçirilən tullanmalar üzrə beynəlxalq turnirdə iştirak edib.

Yarışda üç təkanla tullanma növü üzrə iştirak edən atletimiz Yekaterina Sarıyeva 13,29 metr nəticə göstərərək gümüş medal qazanıb.

Qeyd edək ki, fevralın 15-də İstanbulda keçirilən Balkan çempionatında atletimiz Y.Sarıyeva 13.50 metr nəticə ilə üçüncü olub.

### Azərbaycanın yeniyetmə cüdoçuları Antalyada dörd medal qazanıblar

Cadet European Judo Cup Antalya 2020

Antalyada yeniyetmə cüdoçular arasında keçirilən Avropa kuboku turnirində Azərbaycan komandası daha bir medal qazanıb.

Yarışların ikinci günündə Nərmin Əmirli (+70 kq) bürünc medala layiq görülüb.

Beləliklə, komandamızın Avropa kuboku turnirində qazandığı medalların sayı dördə çatıb.

Qeyd edək ki, yarışların birinci günündə Murad Gülməmmədov (50 kq) gümüş, Seymur Məcidli (60 kq) və Lətifə Abbasova (48 kq) bürünc medal qazanıblar.

Avropa kubokunda 16 ölkədən 500-dən çox cüdoçu mübarizə aparıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Hərbi texnikalar, silahlar

# Yaylım atəşli RM-70 reaktiv sistemi



Yaylım atəşli RM-70 reaktiv sistemi 1970-ci ildən Çexoslovakiyada istehsal olunub və Çexoslovakiya ordusunun silahlanmasında yer alıb. Bundan başqa bir çox ölkələrin silahlanmasına da qəbul edilib. RM-70 yaylım atəşli reaktiv sistemi 1983-cü ildən yüksək keçidliyə malik "Tatra-815" avtomobilinin şassisində quraşdırılıb. Sonradan bu maşının şassisində 40 lüləli paketlə təchiz edilmiş, təkmilləşdirilmiş "KRİZAN" variantı da hazırlanıb. Ərazinin distansion minalanması üçün komplekslə də təchiz edilib.

Reaktiv sistem özüyeriyən buraxıcı qurğudan, NURS - atəşi idarəetmə sistemi və nəqliyyat-təchizat maşınından ibarətdir. Bu sistem özündə inşaca "Tatra-815" şassisini və BM-21-in artilleriya hissəsini təsvir edir. Kompleksin qabaq hissəsində heyət üçün kabinə quraşdırılıb, arxa hissəsində isə artilleriya hissəsi ilə birlikdə buraxıcı qurğu yerləşdirilib. Şassisi çox uzun olduğuna görə burada orta hissədə buraxıcı qurğunu yenidən təchiz etmək üçün hidravlik qurğunun yerləşdirilməsi də mümkün olub. Reaktiv sistemin artilleriya hissəsi 40 lüləli istiqamətləndirici raketdən ibarətdir. Atəş idarə olunmayan M-21OF başlıqlı qəlpə-fuqas reaktiv mərmilərlə atılır. Atəş tək-tək və yaylım atəşi ilə açıla bilər. Bundan başqa son vaxtlar hazırlanan bütün müasir döyüş sursatlarından istifadə etməklə də atəş açmaq olar. "Tatra- 815" avtomobilinin şassisi V-şəkilli 12 silindrli, 270 at gücündə "Tatra"T-930-3 dizelli mühərriklə təchiz olunub.




Əlavə olaraq reaktiv sistemin kabinəsinin damında köməkçi silah kimi 7,62 mm-lik pulemyot quraşdırılıb ki, ondan yerüstü və hava hədəflərinə atəş açmaq olar.

RM-70 yaylım atəşli reaktiv sisteminin RM-70-85, modernləşdirilmiş RM-70, Vz.92 "Krizan" VMZ kimi variantları da mövcuddur.

Yaylım atəşli RM-70 reaktiv sisteminin səyyar vəziyyətdə uzunluğu 8800 mm, eni 2500 mm, hündürlüyü 2900 mm-dir. Silahlanmasına 122 mm-lik 40 ədəd istiqamətləndirici daxildir. Heyəti dörd nəfərdən ibarətdir. Yaylım atəşi açma müddəti 20 saniyə ərzində həyata keçirilir. Təkər formulu 8x8-dir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Gizir Balakişiyev Əfşan Elman oğluna verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

İsmayılov Hüseyn İsmayıl oğluna 1997-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 104
Nüsxə 3900